

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 77 (23.489)

22 may 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Seymur Orucovu Ağstafa Rayon İcra Hakimiyyətinin, Elçin Rzayevi isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib.

Dövlətimizin başçısı videoqəbulda çıxış edərək deyib: Mən sizi bu gün Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçısı vəzifəsinə təyin edirəm. Sizə böyük etimad göstərilir. Siz bu etimadı öz işinizlə doğrultmalısınız.

Ölkə başçısı qeyd edib ki, Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçıları həbs olunub. Bu barədə ictimaiyyətə məlumat verilib. İndi istintaq gedir və hüquq-mühafizə orqanları hər şeyi müəyyən edəcək. Artıq ictimaiyyət məlumatlandırılıb. Ağstafa və İmişli rayonlarında icra hakimiyyəti başçıları tərəfindən edilmiş bu pozuntular digər rayonlarda da mövcud olub və bir neçə icra hakimiyyəti başçısı artıq istintaqa cəlb edilib.

Prezident İlham Əliyev yeni icra başçılarının fəaliyyətinə diqqət göstəriləcəyini, nəzarət olunacağını vurğulayıb: Elə işləməlisiniz ki, mənim tərəfimdən verilən bütün tapşırıqlar yerinə yetirilsin, Ağstafa və İmişli rayonlarının uğurlu inkişafı təmin edilsin.

Yeni təyin olunan icra başçıları göstərilən yüksək etimada görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirib, yorulmadan, var qüvvələri ilə çalışacaqlarına söz veriblər.



# Muxtar respublikada yaz-tarla işlərinin vəziyyəti müzakirə edilib

## Yeni alınmış kənd təsərrüfatı texnikalarına baxış olub

Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"İndiki şəraitdə kənd təsərrüfatı emalı sahəsinə daha çox diqqət yetirilməlidir. Çünki biz əlavə dəyər zənciri yaratmalıyıq və çalışmalıyıq ki, həm daxili bazara, həm xarici bazarlara daha çox hazır məhsul təqdim edək".***

Muxtar respublikada kənd təsərrüfatının prioritet sahə kimi müəyyənləşdirilməsi yerli istehsalın həcmini artırmış, ixrac imkanı yaratmış və əhalinin məşğulluğu təmin olunmuşdur. Bu gün torpaq mülkiyyətçiləri və fermerlərin müasir kənd təsərrüfatı texnikaları ilə təmin olunması da məhsul istehsalında rentabelliyi artıran əsas tədbirlərdəndir.

Mayın 21-də muxtar respublikada yaz-tarla işlərinin vəziyyəti müzakirə edilmiş, yeni alınmış kənd təsərrüfatı texnikalarına baxış keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.



Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək demişdir ki, yeni innovativ texnologiyaların tətbiqi muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalının artmasına səbəb olmuşdur. Bu da əkinlərin optimal müddətdə aqrotexniki qaydalara uyğun aparılmasına, məhsulun itkisiz və vaxtında yığılmasına, məhsuldarlığın yüksəldilməsinə, əl əməyinin yüngülləşdirilməsinə və məhsul istehsalına çəkilən xərclərin azalmasına imkan verir. Ötən dövrdə muxtar respublikada 1228 mülkiyyətçiyə lizinqə verilmiş 2081 texnikaya görə 9 milyon 764 min manat güzəşt tətbiq edilmiş, 359 texnika və texnoloji avadanlığın dəyəri tam ödənildiyindən 232 sahibkara həmin texnikaların onların şəxsi mülkiyyətinə keçirilməsinə dair sənədlər təqdim olunmuşdur.

Yaz əkinləri və taxıl biçininə hazırlıq barədə məlumat verən Elşad Əliyev demişdir ki, muxtar respublikada tələb olunan toxumlar tədarük edilmiş, kartof əkinlərinin mütəşəkkil həyata keçirilməsi məqsədilə torpaq mülkiyyətçiləri tərəfindən 2 min ton kartof toxumu, lazım olan miqdarda gübrə və dərman preparatları gömrük rüsumları ödənmədən muxtar respublikaya gətirilmişdir. Yaz aylarında muxtar respublikada 637 hektar sahədə yazlıq arpa, 3 min 240 hektar sahədə kartof, 157 hektar sahədə soğan, 5 min 466 hektar sahədə tərəvəz, 1333 hektar sahədə qarğıdalı, 31 hektar sahədə tütün, 2 min 248 hektar sahədə bostan, 8 min 623 hektar sahədə çoxillik ot olmaqla, ümumilikdə, 22 min 800 hektar sahədə əkin aparılmışdır. Bu ilin məhsulu üçün muxtar respublika üzrə 36 min 753 hektar sahədə taxıl biçini aparılacaq ki, bunun da 26 min 265 hektarını buğda, 10 min 488 hektarını isə arpa əkinləri təşkil edir. Taxıl biçininin optimal müddətdə başa çatdırılması üçün 102 taxılbiçən kombayn, 602 traktor, eləcə də digər texnika və avtomobillər hazır vəziyyətə gətirilmişdir. Ali Məclis Sədrinin tapşırığına uyğun olaraq taxılın alış qiyməti artırılaraq istehsalçılardan buğdanın bir kiloqramı 38, arpanın bir kiloqramı 35, qarğıdalının bir kiloqramı isə 40 qəpikdən qəbul edilərək dəyəri yerində ödəniləcəkdir. Elşad Əliyev kənd təsərrüfatı sahəsində yaradılan şəraitə və göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafına göstərilən dövlət qayğısı və həyata keçirilən tədbirlər ərzaq təhlükəsizliyini təmin etmişdir. Azərbaycan Respublikası Prezidentinin qayğısı ilə 2019-cu ildə aqrolizinq xidmətlərin yaxşılaşdırılması ilə bağlı görülən tədbirlər çərçivəsində alınmış yeni kənd təsərrüfatı texnikaları bu gün təqdim olunur. Yeni texnikalar əkin və biçin işlərinin rahat həyata keçirilməsinə imkan verəcək, taxılçılıq, meyvəçilik və tərəvəzçilik sahələrində əl əməyini yüngülləşdirəcəkdir.



Ali Məclisin Sədri demişdir: Kənd təsərrüfatı sahəsində həyata keçirilən tədbirlər içərisində texnika ilə yanaşı, toxum və su təminatı da mühüm yer tutur. Artıq muxtar respublikada torpaq mülkiyyətçiləri məhsuldar yerli toxumlarla təmin edilir, eyni zamanda müasir hidrotexniki qurğuların, su anbarlarının tikilməsi yaz və payız suvarma mövsümünün mütəşəkkil keçirilməsinə imkan verir. Bütün bunlar kənd təsərrüfatı sahəsində məşğulluğu təmin etməklə yanaşı, həm də bol məhsul istehsalına və ixrac imkanlarının yaranmasına səbəb olub.

Ali Məclisin Sədri demişdir: Dövlətimiz tərəfindən texnikaların verilməsində güzəştlərin tətbiq olunması, yəni texnikanın dəyərinin 20 faizi sahibkar tərəfindən ödənildikdən sonra, onun 40 faizinin dövlət tərəfindən qarşılanması və qalan vəsaitin uzunmüddətli kredit şəklində verilməsi torpaq mülkiyyətçiləri üçün geniş imkanlar açmış, onların istifadəsində olan texnikaların sayı artmışdır. Bu da imkan verəcəkdir ki, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti xidmət göstərən təşkilat kimi fəaliyyətini davam etdirsin. Bu gün muxtar respublikada aqrolizinq xidməti yaxşı təşkil olunub. Sovetlər Birliyi dövründə belə, ölkəmizdə və muxtar respublikada kənd təsərrüfatı texnikaları parkı bugünkü səviyyədə olmayıb. Hazırda muxtar respublikada dünyanın inkişaf etmiş ölkələrinin texnikaları əkin, becərmə və biçin işlərində istifadə olunur. Bütün bunlar kənd təsərrüfatı ilə məşğul olan insanlara göstərilən dövlət qayğısıdır.

Ali Məclisin Sədri yeni texnikaların bu sahədə təcrübəsi olan şəxslərə verilməsi və onlardan səmərəli istifadə ilə bağlı tapşırıqlar vermişdir.

Sonra yeni alınmış texnikalara baxış olmuşdur.

Bildirilmişdir ki, bu ilin ötən dövründə sahibkarların texnika təminatını düzgün təşkil etmək üçün onların sifarişləri əsasında 3 milyon 488 min manat dəyərində 222 texnika və texnoloji avadanlıq, o cümlədən bu ilin may ayında " Klass" və " Sampo" markalı 7 taxılbiçən kombayn, 9 traktor, 2 qarğıdalıbiçən, 20 kipvuran, 1 toxumtəmizləyən, 3 samandoğrayan, 1 kartofəkən, 3 kartofçıxaran, 1 qarğıdalısəpən, 6 ağırdiskli mala, 20 kotan və digər texnikalar alınaraq muxtar respublikaya gətirilmişdir. Alınmış texnikalardan 118-i lizinq yolu ilə torpaq mülkiyyətçilərinə verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Dövlət proqramı necə icra olunur*

# Muxtar respublikada meyvə və tərəvəzə olan tələbat yerli istehsal hesabına ödənilir

***Naxçıvan Muxtar Respublikasında meyvəçilik aqrar sektorun perspektivli və kənd əhalisinin əsas məşğulluq sahələrindəndir. Ərazinin ekoloji baxımdan əlverişli olması və qədim təsərrüfatçılıq ənənələri burada özünəməxsus dada, keyfiyyətə, əmtəə görünüşünə malik müxtəlif meyvə sortlarının becərilməsinə imkan verir.***

Naxçıvan Muxtar Respublikasında bu sahənin inkişafı məqsədilə kompleks tədbirlər həyata keçirilir, meyvəçilik və tərəvəzçiliklə məşğul olanlara güzəştli kreditlər verilir, meliorativ tədbirlər görülür, məhsulların satışı üçün yarmarkalar təşkil olunur. Qazanılan nailiyyətlərin əsasında “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın uğurla icra olunması dayanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş dövlət proqramının əsas məqsədi muxtar respublikanın meyvə və tərəvəzə olan tələbatının yerli istehsal hesabına ödənilməsi, kənardan gətirilən sort meyvə tinglərinin, yerli şəraitə uyğun məhsuldar sortların əkilməsi, müasir standartlara cavab verən texnologiyalar əsasında yeni meyvə və tərəvəz emalı müəssisələrinin yaradılması, mövcud torpaq sahələrindən daha səmərəli istifadə olunması, kənd əhalisinin məşğulluğunun artırılması, sahibkarlığın stimullaşdırılması məqsədilə bu sahəyə dövlət dəstəyinin, daxili və xarici investisiyaların cəlb edilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Proqramda 28 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuşdur. 2016-2017-ci illər üçün nəzərdə tutulmuş Kəngərli rayonu ərazisində 100 hektar sahədə püstə bağının salınması, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi laboratoriyasının fəaliyyətinin gücləndirilməsi və müasir avadanlıqlarla təmin edilməsi ilə bağlı tapşırıqların icrası başa çatdırılmışdır.

2020-ci ilin yanvar-mart aylarında dövlət proqramının icrası istiqamətində Naxçıvan Muxtar Respublikasının iqlim şəraitinə uyğun, yüksək məhsuldarlığa malik yerli meyvə-tərəvəz sortlarının bərpa və tətbiq olunması üçün tədqiqat işləri davam etdirilmiş, həmin sahələrdə becərilən kənd təsərrüfatı bitkilərindən nəzərdə tutulan məhsuldarlığın alınması üçün üzvi və mineral gübrə normaları müəyyənləşdirilmiş, Kəngərli rayonunun Böyükdüz, Xok bələdiyyələrinin və “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyətinin istifadəsinə verilmiş torpaqların qida maddələri ilə təminolunma kartoqramları hazırlanmışdır. Eyni zamanda Şərur rayonunun Axura, Dizə, Gümüşlü, Həmzəli, Şahbuz rayonunun Aşağı Qışlaq, Biçənək və Yuxarı Qışlaq bələdiyyələri üzrə hazırlanan işçi planlar torpaq analizlərinin aparılması üçün “Araz” Elm-İstehsalat Birliyinə təhvil verilmişdir. Yüksək məhsuldarlığa malik meyvə-tərəvəz sortları ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi əməkdaşlarının 3 elmi məqaləsi xarici jurnallarda çap edilmiş, 6 məqaləsi isə kütləvi informasiya vasitələrində işıqlandırılmışdır.

Əkin sahələrinin genişləndirilməsi məhsuldarlığın artırılmasına səbəb olan əsas amillərdəndir. Əkinçilərin hər hansı məhsulu rüsum ödəmədən muxtar respublikaya gətirmələrinə şərait yaradılması bu sahəyə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Bu, bir daha sübut edir ki, kənd əhalisinin məşğulluğunun artırılması, meyvə və tərəvəzə olan tələbatın yerli istehsal hesabına ödənilməsi və aqrar sektorun davamlı inkişafı dövlət tərəfindən diqqət yetirilən başlıca sahələrdəndir. 2020-ci ilin yanvar-mart aylarında da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə 188 əkinçiyə məxsus 1680 ton toxumluq kartofu idxal rüsumu ödəmədən muxtar respublikaya gətirmələrinə köməklik göstərilmişdir.

Kənd təsərrüfatında əsas hədəf məhsuldarlığın yüksəldilməsidir. Meyvəçiliyin və tərəvəzçiliyin inkişafında vacib məsələlərdən biri



də müasir meliorasiya və irriqasiya sistemlərinin qurulmasıdır. Əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi və əkin sahələrindən bol məhsul götürülməsində mütərəqqi suvarma sistemlərinin qurulması mühüm əhəmiyyət kəsb edir. Dövlət proqramında torpaqların su ilə təminatının yaxşılaşdırılması üçün suvarma şəbəkələrinin tikintisinin davam etdirilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə qeyd olunan dövrdə Şərur rayonunda 33,4, Babək rayonunda 106,4, Sədərək rayonunda 2,2 hektar olmaqla, ümumilikdə, 142 hektar ərazidə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 127 kilometr uzunluğundakı kanallarda və 10 kilometr kollektorda lildən təmizlənmə, hidrotexniki qurğularda isə təmir-bərpa işləri aparılmışdır.

Şərur rayonunun İbadulla kəndində əkin sahələrinin su ilə təminatını yaxşılaşdırmaq üçün 1 subartezian quyusu qazılaraq istifadəyə verilmiş, Şahbuz rayonunun Külüs kəndində 400 hektar torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün nasos stansiyasının və yüksəktəzyiqli boru xəttinin tikintisi davam etdirilmiş, Babək rayonunun Kültəpə, Şahbuz rayonunun Türkeş kəndlərinin hər birində 1 subartezian quyusu təmir edilərək balansa alınmışdır. Sədərək rayonunun Heydərabad qəsəbəsində yeni əkin sahələrinin suvarma suyu ilə təminatı üçün 850 metr suvarma boru xətti quraşdırılmış, 3 subartezian quyusu bərpa olunmuşdur.

Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasında, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində, emal müəssisələrinin xammalla təchiz edilməsində kənd təsərrüfatı məhsulları istehsalının mühüm əhəmiyyəti vardır. Ona görə də aqrar sektorun inkişafına ciddi önəm verilir, intensiv metodlara və müasir texnologiyalara əsaslanan kənd təsərrüfatı məhsulları istehsalının həcmi ilbəil artır. Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də tədarük edilən məhsulların saxlanılması üçün soyuducu anbarların tikintisidir. Çünki soyuducu anbarlar kənd təsərrüfatı məhsullarının bazara çıxış müddətinin artırılmasında mühüm rol oynayır. Muxtar respublikamızda kənd təsərrüfatı məhsullarının istehsalı ilə yanaşı, onların ilboyu yüksək keyfiyyətlə saxlanılması və bazara təklif olunmasına xidmət edən soyuducu anbarların yaradılması da diqqət mərkəzindədir. Birinci rübdə bu məqsədlə işlər davam etdirilmiş, Şərur rayonunun Yuxarı Aralıq kəndində dövlət maliyyə dəstəyi hesabına 1 fiziki şəxs tərəfindən soyuducu anbarın genişləndirilərək 300 tona çatdırılması, Babək rayonunun Nehrəm kəndində özəl investisiya qoyuluşu hesabına “Sumqala Tikinti Təchizat” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tutumu 2500 ton olan soyuducu anbarın yaradılması yekunlaşmışdır. Eyni za-




manda Şərur rayonunun Düdəngə kəndində dövlət maliyyə dəstəyi hesabına 1 fiziki şəxs tərəfindən tutumu 200 ton, Culfa rayonunun Yaycı kəndində özəl investisiya qoyuluşu hesabına 1 fiziki şəxs tərəfindən tutumu 35 ton olan soyuducu anbarların yaradılması davam etdirilmişdir. Hazırda muxtar respublikada tutumu 18 min 740 ton olan 39 soyuducu anbar vardır.

Aqrar sahədə istehsal olunan məhsulların keyfiyyəti onların satış qabiliyyətini xarakterizə edən ən mühüm amillərdəndir. Dövlət proqramının icrası məqsədilə həyata keçirilən monitorinqlər vasitəsilə meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların keyfiyyəti nəzarətdə saxlanılır. 2020-ci ilin ötən dövründə, ümumilikdə, meyvə-tərəvəz məhsullarının 160 halda keyfiyyət və ya təhlükəsizlik göstəriciləri yoxlanılmış, nəticələrin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğun olduğu müəyyən edilmiş, 5 məhsul sertifikatlaşdırılmışdır.

Proqrama uyğun olaraq ötən dövrdə sağlam rəqabət mühitinin yaradılması və daxili bazarın qorunması məqsədilə tədbirlərin həyata keçirilməsi davam etdirilmiş, kənd təsərrüfatı məhsullarının kütləvi istehsalı dövründə həmin məhsulların qonşu ölkələrdən idxalının qarşısı alınmış, istehsalçıların öz məhsullarını birbaşa istehlakçılara çatdırmalarına şərait yaradılması üçün hər həftənin şənbə-bazar günləri və Novruz bayramı ərəfəsində yarmarkalar təşkil olunmuşdur. Bayram günlərində keçirilən yarmarkalara muxtar respublikada fəaliyyət göstərən 360 ailə təsərrüfatı subyekti dəvət edilmişdir.

Ötən dövrdə meyvə və tərəvəzçilik təsərrüfatlarının yaradılması diqqətdə saxlanılmış, dövlət maliyyə dəstəyi hesabına Tumbul kəndində meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, Şərur rayonunun Ələkli kəndində istixana təsərrüfatının, Babək rayonunun Nehrəm kəndində meyvə-tərəvəz məhsullarının qablaşdırılması və meyvə araqlarının hazırlanması sahəsinin, Culfa rayonunun Milax kəndində tingçilik sahəsinin yaradılması, Babək rayonunun Məzrə kəndində 1 hektar ərazidə salınmış üzüm bağının fəaliyyətinin stimullaşdırılması başa çatdırılmışdır. Şərur rayonunun Muğanlı kəndində meyvə-tərəvəz məhsullarının qablaşdırılması, Oğlanqala kəndində istixana təsərrüfatının fəaliyyətinin bərpası, Danyeri kəndində bağçılıq təsərrüfatının, Babək rayonunun Xəlilli kəndində 12 hektar torpaq sahəsində qarğıdalı və bostan bitkiləri əkininin, Sirab kəndində 6 hektarda bağçılıq təsərrüfatının yaradılması, Şahbuz rayonunun Kolanı kəndində bağçılıq təsərrüfatının fəaliyyətinin stimullaşdırılması, Gömür kəndində müxtəlif çeşidli meyvə araqlarının hazırlanması, Sədərək rayonunun Sədərək kəndində meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi sahəsinin yaradılması davam etdirilmişdir. Sahibkarlığın İnkişafı Fondu tərəfindən muxtar respublikada kənd təsərrüfatı yönümlü 32 layihənin maliyyələşdirilməsinə 416 min 500 manat dəyərində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Muxtar respublikada Arazboyu düzənlik ərazilərdə, Naxçıvançay, Əlincəçay, Gilançay çayları boyunca meyvə bağlarının salınması, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı, üzümçülüyün inkişafı, şoranlaşmış və ya eroziyaya uğramış torpaqların əkin dövriyyəsinə daxil edilməsi, yeni suvarma metodlarının tətbiqi, kiçikhəcmli meyvəqurutma istehsalı sahəsinin, kənd təsərrüfatı cəmiyyətləri və birliklərinin yaradılması ilə bağlı fermer və sahibkarlar arasında maarifləndirmə tədbirləri həyata keçirilmişdir. 2020-ci ilin yanvar-mart aylarında çay vadilərində suvarma imkanları olan ərazilərdə, ümumilikdə, 3,5 hektar sahədə yeni meyvə bağları salınmış, 9 hektar sahədə meyvə və giləmeyvə toxumlarından istifadə edilməklə toxumla əkin, 3,7 hektar sahədə müxtəlif meyvə tingləri ilə bərpa işləri aparılmışdır. Kənd təsərrüfatı istifadəsindən kənarda qalmış torpaq sahələrində, əsasən, dağlıq və dağətəyi zonalarda, relyefi mürəkkəb olan ərazilərdə və kənd təsərrüfatı üçün yararsız olan torpaqlarda meyvə və giləmeyvə toxumlarından istifadə olunmaqla, 33 hektar sahədə 165 kiloqram toxumla əkin işləri həyata keçirilmişdir. Ötən dövrdə tingçilik sahələrində 1,1 hektardan çox ərazidə müxtəlif növ meyvə toxumlarından ibarət toxmacarlıq, yerli üzüm sortlarından ibarət qələm kökləndirmə sahələri yaradılmış, 13 min 500 ədəd üzüm, 410 ədəd qovaq qələmi əkilmiş, 4 min 820 dibçəkdə müxtəlif növ meyvə tingi yetişdirilmiş, Ordubad Milli Parkı ərazisində 400 müxtəlif cır meyvə ağacına calaq vurulmuşdur. Ümumiyyətlə, yanvar-mart aylarında dövlət proqramının icrası istiqamətində muxtar respublikada 3,8 hektarı üzüm bağı olmaqla, 44,4 hektar sahədə yeni meyvə bağları salınmış, 30,9 hektar sahədə meyvə tingləri ilə bərpa işləri aparılmış, 47 min 176 müxtəlif növ meyvə tingi, 6 min 675 üzüm kolu əkilmişdir.

Geni dəyişdirilmiş məhsulların muxtar respublikaya idxalının və dövriyyəsinin qarşısının alınması məqsədilə həmin məhsulların siyahısı hazırlanaraq gömrük sərhəd-buraxılış məntəqələrinə təqdim edilmiş, muxtar respublikaya idxal olunan qida məhsullarının markalanmasına nəzarət gücləndirilmişdir.

Əhalini ilboyu meyvə-tərəvəz məhsulları ilə təmin etmək muxtar respublikada aqrar sahədə həyata keçirilən əsas tədbirlərdəndir. Yeni istixana komplekslərinin yaradılması ilin istənilən fəslində daxili



bazarın tələbatının ödənilməsinə imkan verir. Dövlət maliyyə dəstəyi hesabına Şərur və Ordubad rayonlarında 1 limon istixana təsərrüfatının yaradılması başa çatdırılmış, Şərur rayonunda 1 istixana təsərrüfatının fəaliyyətinin bərpası davam etdirilmişdir.

Meyvə-tərəvəz sahələrinə investisiyaların cəlb edilməsi diqqətdə saxlanılmış, Şərur rayonunda 1 layihə üzrə bağçılıq təsərrüfatının yaradılmasına 5 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir.

Əkin atlaslarına uyğun əkin aparılması məqsədilə Babək rayonunun Kərimbəyli və Kəngərli rayonunun Çalxanqala kəndlərində müvafiq rayon İcra Hakimiyyəti başçılarının şəhər, qəsəbə və kəndlər üzrə nümayəndələrinin, bələdiyyələrin, torpaq mülkiyyətçilərinin, istifadəçilərin və icarəçilərin iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir. Torpaqların qida maddələri ilə təmin olunmasına dair hazırlanmış yeni kartoqramlar müvafiq bələdiyyə sədrlərinə təqdim olunmuş, onlara kartoqramlardan istifadə qaydaları izah edilmişdir.

***Dövlət proqramında nəzərdə tutulan tapşırıqların vaxtında icra olunması muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunması, meyvə-tərəvəzə olan tələbatın yerli istehsal hesabına ödənilməsi və kənd əhalisinin məşğulluğunun artırılması sahəsində yeni imkanlar yaradacaqdır.***

**“Şərq qapısı”**

*İnkişaf edən bölgələrimiz*

# Muxtar respublikamızın ən ucqar və dilbər guşələrindən biri – ŞAHBUZ

***Əzəmətli dağların qoynuna sığınan, qonaqlı-qaralı Batabat yaylağı, Ağbulaq turizm istirahət bölgəsi ilə və bir də Məmməd Araz yurdu kimi hər kəs tərəfindən tanınan Şahbuz, həm də uzun illərdən bəri diyarımızda həyata keçirilən sosial-iqtisadi inkişafdan bəhrələnən bölgələrimizdəndir. Muxtar respublikamızda aparılan quruculuq işləri, əsasən, ucqarlardan başladığından bu rayon da uzun bir yeniləşmə dövrünə qədəm qoyub. Bu yenilik Şahbuzun möcüzəli təbiəti ilə ecazkar harmoniya yaratmaqla ucqar dağ rayonunun axarlı-baxarlı, qonaqlı-qaralı bir məkana çevrilməsi ilə nəticələnib. İndi rayona gələnlər buranın gözəllikləri qarşısında heyranlıqlarını ifadə edir, Şahbuzdan xoş təəssüratla ayrılırlar. Bu təəssüratlar Şahbuzun badamı və "Badamlı"sı ilə daha çox bağlı olur. Min illərdir, rayonun Badamlı qəsəbəsində və Badamlı kəndində badamçılığın inkişaf etdirilməsi və ərazidən çıxan eyniadlı mineral su Şahbuzun adını dillər əzbəri edib.***



"Badamlı" suyunun istehsal tarixinə qısa ekskursiya etdikdə aydın olur ki, 1945-1947-ci illərdə geologiya-mineralogiya elmləri doktoru Əziz Əsgərovun rəhbərliyi altında ərazidə elmi-tədqiqat işləri aparılaraq burada mineral su yatağı olduğu aşkarlanıb, müxtəlif kimyəvi tərkibli mineral sular sırasında 5 nömrəli bulaqdan istifadə edilməsi məqsədəuyğun hesab olunub. Uzun illər, "Badamlı"nın şan-şöhrəti el-obanı dolaşsa da, ötən əsrin 90-cı illərinin acı nəticələri suyun istehsalında durğunluğun yaranmasına yol açdı. Lakin müstəqillik illərində muxtar respublikamız blokada şəraitində yaşamasına baxmayaraq, uzun fasilədən sonra "Badamlı" suyunun da əvvəlki şöhrətini özünə qaytardı. 2004-cü ildə "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən özəlləşdirilən müəssisə bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən fəaliyyətə başladı. 2009-cu il avqustun 3-də isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən, binanın ümumi sahəsi 9 min 590, istehsal sahəsi isə 3 min 600 kvadratmetr olan "Badamlı" Mineral Sular Zavodu istifadəyə verildi.

Mineral suya tələbatın artması Şahbuz rayonunun Badamlı qəsəbəsində yeni müəssisənin qurulmasını zərurətə çevirdi və muxtar respublika rəhbərinin göstərişi ilə ümumi sahəsi 10 min 590 kvadratmetr olan yeni zavod inşa edildi. Zavod xammal anbarı, istehsal sahəsi və hazır məhsul anbarından ibarətdir. Burada tikinti işləri başa çatdırılıb, Fransa istehsalı olan avadanlıqlar alınıb gətirilib. Müəssisədə qazlı və qazsız olmaqla, müxtəlifölçülü qablaşdırmada "Badamlı" suyu istehsal ediləcək. İstehsal prosesi tam avtomatlaşdırılmış şəraitdə və standartların tələblərinə uyğun həyata keçiriləcək. Həmçinin zavodda müasir avadanlıqlarla təmin edilmiş laboratoriyalar istifadəyə veriləcək, istehsal olunmuş məhsulların keyfiyyətinə tam nəzarət ediləcək. İkimərtəbəli inzibati binada işçilərin rahatlığı nəzərə alınaraq iş və texniki otaqlar istifadəyə veriləcək. Ötən dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Badamlı" Mineral Sular Zavodunun inşası ilə maraqlanaraq burada istehsal sahəsində avadanlıqların quraşdırılması, zavodun ərazisində, eləcə də Badamlı qəsəbəsində abadlıq işlərinin aparılması barədə verdiyi tapşırıqlar yüksək səviyyədə yerinə yetirilib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun digər mineral sulardan şəffaflığı və qoxusuz olması ilə fərqləndirdiyi "Badamlı" mineral suyunun şöhrəti bu gün dünyanın hər yerinə yayılıb. İxrac olunduğu ölkələr sırasında Rusiya Federasiyası, Qazaxıstan, İraq, Çin, Birləşmiş Ərəb Əmirlikləri və digərlərinin yer aldığı mineral süfrə suyu beynəlxalq sərgilərdə böyük maraqla qarşılanır. Cari ildə Rusiya Federasiyasında keçirilən "ProdExpo – 2020", Birləşmiş Ərəb Əmirliklərində keçirilən "Gulfood – 2020" sərgilərində nümayiş edilən muxtar respublikamızın bu brend məhsuluna maraq çox böyük olub.

...Rayon sakinlərinin dediyinə görə, təxminən, 25-30 il bundan əvvəl tək təbiətin bəxş etdiyi gözəlliklərlə kifayətlənməli olan bu rayonun yol infrastrukturu dözülməz vəziyyətdə idi. Naxçıvan şəhərindən rayon mərkəzinə, hələ buradan kəndlərə getmək insana dağ aşmaq qədər ağır gəlirdi. Çünki 30-45 dəqiqəyə rayon mərkəzinə, 1 saatdan artıq vaxta isə rayonun ucqar kəndlərinə ancaq çatmaq olurdu. Çala-çökək, yağışlı havalarda zığ-palçıqlı yollar qışda daha təhlükəli olur, bu da avtomobillərin normal hərəkətinə çətinlik yaradırdı. Lakin öz torpağına, elinə bağlı insanların gərgin zəhməti sayəsində qısa zaman çərçivəsində sadalanan xoşagəlməz hallar aradan qaldırıldı. İndi buraya üz tutan qonaqları gözəl, yaraşıqlı Şahbuz şəhəri qarşılayır, rayonun ta ucqar dağ kəndlərinədək geniş və abad yollar ilin bütün fəsillərində insanlara "xoş gəldin" edir.





Muxtar respublikamızı quruculuq prosesi öz ağuşuna aldığı bir dövrdə Şahbuz şəhəri də müasir dövrün tələblərinə uyğun həyata keçirilən kompleks yeniləşmə, abadlıq tədbirləri ilə sovet dövründəki köhnəlik, miskinlik yağan simasını tərk edib. Burada ildən-ilə ucaldılan, əsaslı təmir olunan yaraşıqlı inzibati və ictimai yaşayış binaları, salınan parklar, bağlar, abadlaşdırılan yol və küçələr kiçik şəhərə böyük dövlət qayğısının göstəricisidir. Günü-gündən gözəlləşən Şahbuzun hüsnünü quruculuq töhfələri daha da gözəlləşdirir. Ötən il Şahbuz şəhərində Mədəniyyət Sarayının, aviakassa binasının, Türkeş kəndində məktəb binasının, kənd və xidmət mərkəzlərinin, 343 hektar ərazini əhatə edən qapalı suvarma şəbəkəsinin, Badamlı qəsəbəsində iki körpünün, xidmət mərkəzinin, yeni avtomobil yollarının istifadəyə verilməsi insanların firavan həyat tərzi keçirməsinə geniş imkanlar açıb. Bundan başqa, hazırda rayonun Sələsüz, Türkeş və Mərəlik kəndlərinin ərazilərində qapalı suvarma şəbəkəsinin, eyni zamanda rayonun Külüs kəndində nasos stansiyasının qurulması gələcəkdə 1600 hektara yaxın torpaq sahəsinin əkin dövriyyəsinə qatılmasına imkan verəcək ki, bu da bölgənin ümumi iqtisadi inkişafına əhəmiyyətli dərəcədə təsir göstərəcək.

Rayonda kompleks quruculuq tədbirləri 2020-ci ildə də uğurla həyata keçirilir, cari ilin yanvar-aprel aylarında tikinti-quraşdırma işlərinə ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,5 faiz artıq, 4 milyon 602 min 300 manat vəsait qoyulub ki, bu da geniş inşaat işlərinin görülməsinə imkan verib. Belə ki, Badamlı kəndində mərasim evinin inşası başa çatdırılıb, hazırda Şahbuz şəhərində 6 mərtəbəli, 40 mənzilli yaşayış binasının tikintisi davam etdirilir. Bundan əlavə, Keçili, Kükü, Külüs kəndlərində mərasim evlərinin, Şahbuz şəhərində yeni yaşayış binasının inşası uğurla reallaşdırılır.

Son illər muxtar respublikamızın ən ucqar dağ kəndlərindəki müasir standartlara cavab verən məktəblərində də ali təhsil ocaqlarına qəbulun səviyyəsi ildən-ilə yüksəlir. Buna müasir maddi-texniki bazası gücləndirilən, savadlı müəllim kollektivlərinin çalışdığı məktəblərdə təlim-tərbiyə işinin düzgün təşkili nəticəsində nail olunub. Şahbuz rayonu da muxtar respublikamızın özünəməxsus təhsil ənənələri ilə seçilən bölgələrindəndir. Burada ötən tədris ili də nailiyyətlərlə yadda qalıb. Belə ki, rayonun tam orta məktəblərini bitirən 139 məzunun 128-i, yaxud 92 faizi ali məktəblərə sənəd qəbulunda iştirak edib. İmtahanın nəticələrinə əsasən 17 nəfər 500-dən, 1 nəfər isə 600-dən yuxarı bal toplamaqla tələbə adını qazanıb. Cari tədris ilində də təhsil sahəsində böyük uğurların əldə olunması gözləniləndir.

Əhalinin sağlamlığına həssaslıqla yanaşılan muxtar respublikamızda səhiyyə sistemi ən çox diqqət göstərilən sahələrdəndir. Şahbuz rayonunda da ötən illər bu sahəyə böyük vəsait qoyulub, rayon mərkəzindən ən ucqar kəndlərədək hər birində müasir səhiyyə ocaqları yaradılıb, onların hər biri müasir avadanlıqlarla təchiz olunub, maddi-texniki bazaları möhkəmləndirilib. Əvvəllər bu sahədəki çatışmazlıqlar üzündən adi bir xəstəlik üçün Naxçıvan şəhərinə üz tutan, bunun üçün xeyli vaxtını itirən və vəsait sərf edən insanlar indi yaşadıqları kəndlərdəki müasir həkim ambulatoriyalarının və feldşer-mama məntəqələrinin xidmətlərindən yararlanırlar. Həmçinin insanların səhiyyə xidmətlərindən rahat yararlanması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamına əsasən ötən ildən Şahbuzda da icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Bu məqsədlə görülən işlər vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin daha da artırılmasını, səhiyyə sisteminin dayanıqlı inkişafını, əhalinin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsini və maddi rifah halının yaxşılaşmasını təmin edib. Rayonda səhiyyə sahəsində həyata keçirilən quruculuq tədbirlərinin davamı olaraq Ağbulaq kəndində həkim ambulatoriyası binasının tikintisi həyata keçirilir.

Şahbuzun dağlıq ərazidə yerləşməsi burada aqrar sahənin üstünlük təşkil etməsinə səbəb olub, qədimdən əkin-biçin, arıçılıq, heyvandarlıq, maldarlıq, quşçuluq sahələri geniş inkişaf edib. Fermerlərə göstərilən dövlət qayğısı, subsidiya və gübrələrin verilməsi, texnikalarla təminat, o cümlədən keyfiyyətli yerli toxum sortlarından istifadə zəhmət adamlarının torpağa bağlılığını artırmaqla yanaşı, həm də əkilən ərazilərin məhsuldarlığına öz müsbət təsirini göstərir. Naxçıvan şəhərində keçirilən ənənəvi festivallarda bu bölgənin torpaq adamlarının fəallığı, istehsal olunan məhsul çeşidlərinin alıcılar tərəfindən maraqla qarşılanması da Şahbuzda aqrar sahənin əhəmiyyətli dərəcədə inkişafından xəbər verir. 1 may 2020-ci il tarixə rayonda 758 hektar sahədə yazlıq bitkilər əkilib. Əkin sahəsinin 185 hektarını dənli və dənli- paxlalılar (qarğıdalısız), 350 hektarını kartof, 142 hektarını tərəvəz, 5 hektarını ərzaq üçün bostan bitkiləri, 76 hektarını cari ilin çoxillik otları təşkil edir.

Dağlıq və dağətəyi otlaq əraziləri ilə bol olan Şahbuzda sakinlərin əsas məşğuliyyət növlərindən biri də heyvandarlıqdır. Sahələrin vaxtlı-vaxtında suvarılması, qışa hazırlıq zamanı kifayət qədər yem tədarük edilməsi fermerlərin təsərrüfatlarını ilbəil daha da genişləndirmələrinə imkan verir. Hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında rayon təsərrüfatçılarının istehsal etdikləri ağartı məhsulları piştaxtaları bəzəyir. "Yaxşı qazanc olan yerdə işləməyə, zəhmət çəkməyə dəyər", – deyə çalışan torpaq adamları cari ildə də rayonun inkişafına töhfə verəcəklərinə əmindirlər. Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafının davamlı dəstəklənməsi, iribuynuzlu mal-qaranın, xırdabuynuzlu heyvanların baş sayının artmasına müsbət təsir göstərib. 1 aprel 2020-ci il tarixə rayonun bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 24 min 915 baş, qoyun və keçilərin sayı isə 133 min 458 baş olub ki, bu da 2019-cu ilin müvafiq dövründəki göstəricini 1,4 və 1,7 faiz üstələyib. Təsərrüfatlarda yüksələn artım tempinin nəticəsində yanvar-aprel aylarında diri çəkidə 1108 ton ət, 4667 ton süd, 6 milyon 48 min 800 ədəd yumurta istehsal olunub. 2019-cu ilin yanvar-aprel ayları ilə müqayisədə ət istehsalı 1,1, süd istehsalı 1,4, yumurta istehsalı isə 13,2 faiz artıb.

Rayonun kənd və balıqçılıq təsərrüfatlarında, ümumilikdə, 6 milyon 409 min 400 manatlıq məhsul istehsal edilib ki, bu da 2019-cu ilin yanvar-aprel ayları ilə müqayisədə 4,8 faiz çoxdur.

Muxtar respublikamızın təbiət gözəli olan Şahbuz bütün fəsillərdə füsunkar görünüşü, bənzərsiz təbiəti ilə turistləri cəlb edən bölgədir. Yazı çiçək ətirli, qışı möcüzə, yayı bir başqa mənzərə, payızı bol meyvəli olan rayonun son illər aparılan quruculuq işləri ilə daha da gözəlləşən, müasirləşən hüsnü, infrastruktur sahələrinin inkişafı buranı əsl turizm məkanına çevirib. Şahbuzda 140-a yaxın tarix- mədəniyyət abidəsinin qeydiyyata alınması, onlardan 6-nın dünya əhəmiyyətli, böyük əksəriyyətinin isə arxeoloji abidələr olması turistlərin diqqətini çəkən məqamlardandır. Rayonun coğrafi mövqeyi isə burada ekoturizm, kənd yaşıl, müalicə, qış və digər turizm növlərinin inkişafına böyük imkan yaradır.

Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən Ağbulaq isə gözəl təbiəti, heyrətamiz coğrafi mövqeyi olan turizm üçün çox əlverişli kənddir. Burada 2013-cü ildən fəaliyyət göstərən istirahət mərkəzi kənddə turizmin inkişafına təkan verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına uyğun olaraq əlverişli təbii-coğrafi şəraitə malik olan Ağbulaqda kənd turizm-istirahət bölgəsinin yaradılması və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülüb. Yaxın gələcəkdə bir saatda yüzlərlə insan bu xidmətlərdən faydalanacaq.

Güneyli-quzeyli, axarlı-baxarlı Nursu kəndi sevimli şairimiz Məmməd Arazın ata yurdudur. "Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 28 iyun tarixli Sərəncamı ilə yaradılan ev-muzeyi kəndi turistlərin ilin bütün fəsillərində ən çox üz tutduqları ünvanlardan birinə çevirib. Həmçinin Batabat sorağı ilə bir dəfə Şahbuzda olan qonaq və turistlər bu doyumsuz gözəllikləri görmək, əsrarəngiz məkanın dörd fəslinin bir-biri ilə harmoniya yaradan mənzərələrini seyr etmək üçün yenidən bura qayıdırlar.

***Qarşıdan isti yay günləri gəlir. Can dərmanı sayılan şəfalı otları, dişqamaşdıran zümrüd bulaqları ilə zəngin Batabatda, füsunkarlığı ilə turistləri heyran qoyan Ağbulaqda və rayonun hər biri özünəməxsusluğu ilə seçilən bütün kəndlərində əsl çal-çağır dövrü başlayır. Dağlar qoynuna sığınan, quruculuq töhfələri, böyük diqqət və qayğı ilə sosial mənzərəsi daha da gözəlləşən, hüsnünə yeni naxışlar vurulan Şahbuz rayonu yenə öz qonaqlarının yolunu səbirsizliklə gözləyir...***

**Nail ƏSGƏROV**

*Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilib.*

## Fəal könüllülər mükafatlandırılıb



***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində sosial könüllülər və Sosial iş ixtisası üzrə təhsil alan tələbələrlə onlayn görüş təşkil olunub.***

Görüşdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev və sosial könüllülər adından Alsu Məmmədli çıxış ediblər.

Çıxışlardan sonra xüsusi karantin dövründə keçirilən tədbirlərdən və tənha ahıllarla görüşlərdən ibarət videoçarx nümayiş olunub. Həmin dövrdə keçirilən tədbirlərdə fəal iştirak edən könüllülər mükafatlandırılıb.

Sonda sosial könüllülər və Sosial iş ixtisası üzrə təhsil alan tələbələrlə gələcəkdə görüləcək işlər müzakirə olunub, gənclər tərəfindən təqdim olunan startap layihələri ekspert qrupunun üzvləri tərəfindən dəyərləndirilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## *“İstedadlı şagirdlər”* albom-kataloqunun təqdimatı keçirilib

***Dünən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində “İstedadlı şagirdlər” albom-kataloqunun təqdimatı keçirilib.***



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının rəhbəri Rəşad Əlizadə qeyd edib ki, təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, ümumtəhsil müəssisələri ilə yanaşı, məktəbdənkənar tərbiyə müəssisələrində uşaqların asudə vaxtlarının səmərəli təşkili, onların istedad və bacarıqlarının üzə çıxarılması, yaradıcılıq qabiliyyətlərinin genişləndirilməsi üçün zəruri şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə cari tədris ilində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 12 adda innovativ dərnək yaradılmış, hazırda isə Şərur rayonunun məktəbdənkənar tərbiyə müəssisələrində 15, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə isə 2 adda innovativ dərnəklərin yaradılması davam etdirilir.

Qeyd olunub ki, belə silsilə tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən nəfis şəkildə tərtib olunmuş, yüksək poliqrafik keyfiyyəti ilə seçilən albom-kataloqun giriş hissəsində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 2019-cu il oktyabrın 26-da innovativ dərnəklərin fəaliyyətə başlaması ilə bağlı məlumat və fotolar, istedadlı şagirdlərin fotoları, onlar haqqında ümumi məlumat və əl işləri öz əksini tapıb. Albom-kataloqda, ümumilikdə, 67 şagirdin müxtəlif yaradıcılıq nümunələri yer almışdır.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Murad Babayev çıxış edərək mərkəzdə tədris ili ərzində dərnək üzvlərinin fəal iştirakı ilə keçirilən tədbirlər haqqında ətraflı məlumat verib.

Dərnək üzvlərindən Əzizə Hacıyeva və Kamal Qafarov yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq ediblər.

Sonda kataloqda əl işləri sərgilənən şagirdlərə albom-kataloqlar təqdim edilib və həmin əl işlərindən ibarət sərgiyə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Komanda-qərargah təlimi davam edir

Naxçıvan Qarnizonu Qoşunlarının ərazidə ikitərəfli komanda-qərargah təlimi davam edir. Təlimin rəhbəri, Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev tərəfindən təlimə əlavə qüvvələrin cəlb edilməsi ilə əməliyyat şəraiti qərargahlar üçün daha da mürəkkəbləşdirilib.

Komanda məntəqələri arasında informasiya mübadiləsinin bütün növ rabitə vasitələrinin kompleks tətbiqi ilə təmin edildiyi təlimdə rabitə vasitələrinin aktiv radioelektron mübarizə şəraitində istismarı sınaqdan keçirilir.

Qarşı qərargahlar tərəfindən qəbul edilmiş qərarlara uyğun olaraq ümumqoşun, raket-artilleriya, hava hücumundan müdafiə və digər qoşun növü bölmələri yerdəyişməni, kəşfiyyat və xüsusi təyinatlı bölmələr isə cəmləşmə və açılma rayonlarında diversiya-təxribat xarakterli fəaliyyətləri icra edirlər.

Güc və qüvvələrin bir istiqamətdən digərinə köçürülməsi zamanı qoşunların təhlükəsiz hərəkəti komendant xidməti tərəfindən təmin edilir, bölmələrin manevretmə qabiliyyətləri və aparılan hesabatların reallığı yoxlanılır.

Qeyd edək ki, “Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı”na əsasən bir neçə birləşmə və hissənin cəlb edilməsi ilə ərazidə 18 maydan etibarən başlanan komanda-qərargah təlimi ayın 22-dək davam edəcək.

**Nəriman NƏCƏFOV**

*Yurdumuzun nemətləri*

## Havadan kəklikotu ətri gəlir

***Zəngin Naxçıvan təbiətinin min bir dərdin dərmanı olan bitkilərindən biri də kəklikotudur. İlin bu çağında torpaqdan boy qaldırıb dağların sinəsinə yayılan kəklikotunun ətrini xəfif bahar küləyi ətrafa yaydıqca havadan kəklikotu ətri gəlir.***

Xalq təbabətində bu gün də, əsasən, soyuqdəymə dərmanı kimi istifadə edilən kəklikotu hər bir naxçıvanlı ailəsinin çay süfrəsinin əvəzedilməz təamıdır. Deyirlər ki, yaz gəldimi, samovar salıb, dəmlənən çaya kəklikotu qatmadınsa, daha nə ləzzəti? Hər kəs tərəfindən sevilən ədviyyat kimi kəklikotunun Naxçıvan mətbəxində bütün növləri istifadə olunsa da, qızılgül, limon ətirli olanların öz yeri var.

Naxçıvanda kəklikotundan dərman kimi istifadənin tarixi IV-V əsrlərə gedib çıxır. Tədqiqatlara əsasən o vaxtlar muxtar respublika ərazisində yaşayan qədim türk tayfaları bu bitkinin soyuqdəymədən yaranan xəstəliklərdə faydalı olduğunu bilirdilər. XVII əsrdə yaşamış Azərbaycan həkimi və alimi Hacı Süleyman İrəvani onun müalicəvi əhəmiyyəti haqqında yazıb: “Kəklikotu iştahanı yaxşılaşdırır, həzmə kömək edir, mədə və ağciyər üçün xeyirlidir. Çiçəyinin sirkə və duzla qarışığını ödqovucu vasitə kimi qəbul etmək məsləhətdir. Bu bitkinin həlimi qarında küt ağrıları götürür. Əncirlə qarışdırılmış həlimi öskürəyə faydalıdır. Təzə pendirlə yeyildikdə insanı kökəldir. Göz qarasında yaranan ağ ləkəni kəklikotu şirəsini damcıldatmaqla aradan qaldırmaq olar. Yarpağının bal ilə ovxalanaraq alınan məlhəmini bərk şişlərin üzərinə sürtdükdə onu müalicə edir”.

Şərur rayonunun dağlarında da kəklikotunun bir çox növləri, o cümlədən qızılgül və limon ətirlisi bitir. Yaxın günlərdə rayonun Aşağı Yaycı kənd sakini, 64 yaşlı, on ildən artıqdır ki, dərman bitkilərini toplamaqla məşğul olan Ağa Əliyevlə elə iş başında – kəklikotu yığarkən həmsöhbət olduq. Dərman bitkiləri ilə bir çox insana şəfa tapmaqda kömək etdiyi üçün onu burada həkim kimi tanıyırlar. Ağa əmi deyir: “Min dərd varsa, min bir də dərmanı var” – söyləyən atalarımız qədim dövrlərdən xəstəlikləri bitkilərdən hazırladıqları dərmanlarla müalicə ediblər. Bu bitkilər haqqında məlumatlar bizə nəsildən-nəslə şifahi şəkildə keçib. Dünyagörmüşlər deyirlər ki, sirinə-şehrinə bələd olduğumuz bitkilərdən dəmlənən çayı süfrələrimizdən əskik etməsək, uzunömürlü olarıq. Doğulub böyüdüyüm kəndin hər dağında, dərəsində bitən bitkilər can dərmanıdır. Burada bir müddət yaşayan adam hansısa şəhərə gedəndə orada yaşaya bilmir. Çünki dağların bumbuz bulaqları, tərtəmiz havası, min bir dərdin dərmanı olan otları, çiçəkləri üçün darıxır. Hələ uşaq çağlarımdan nənəmdən, babamdan öyrənmişəm bu bitkilərin can dərmanı olduğunu. Amma bu iş kənardan göründüyü kimi elə də asan deyil. Hər bitkinin özünəməxsus xüsusiyyəti var, bunu bilməsən, kortəbii şəkildə istifadə etsən, xeyrini görməzsən. Ona görə də bitkiləri nə qədər yaxşı tanısan, bir o qədər də faydalana bilərsən. Bir də ki hər dərman bitkisinin özünün toplanma vaxtı var. Onu düzgün formada toplayıb qurutmaq, saxlamaq lazımdır. Elə bu kəklikotu kimi. Bu bitkinin yığılma vaxtı may ayından başlasa da, Şərurun Havuş, Gümüşlü, Şahbulaq kəndlərində dağların qarı bir az gec əridiyi üçün oralarda iyun ayından etibarən kəklikotu yığımı başlayır. Kəndimizin dağları zəngin bitki örtüyünə malikdir. Yazda küləklər onların ətrini hər tərəfə yayır.



Müsahibim deyir ki, bitkiləri yaxşı tanımaq üçün çoxlu kitablar oxuyuram. İbn Sina yazır ki, kəklikotunu çeynəmək diş ağrısını yox edir, damağı möhkəmləndirir. Kəklikotu sakitləşdirici təsirə malikdir, immuniteti artırır. Ən yaxşı ağrıkəsicidir. Revmatizmin müalicəsinə kömək edir. Bəlğəmgətirici təsirə malikdir. Spazmalara, yaraların sağalmasına, şəkər xəstəliyinə, eyni zamanda stresə qarşı faydalıdır. Yuxusuzluğu aradan qaldırır. Qan dövranını nizamlayır.

Ağa əmi deyir ki, kəklikotu dəmləməsi qan dövranını yaxşılaşdırdığı üçün insanda xoş əhval-ruhiyyə yaratmaq, sinir sistemini sakitləşdirmək qabiliyyətinə malikdir. Dərinin parlaqlığı, eləcə də yaraların sağalması üçün onun məlhəmi çox xeyirlidir. Kəklikotu və baldan hazırlanmış məlhəm isə zəhərli həşərat sancmaları zamanı dəriyə çəkilərsə, tezliklə kömək edər.

Müsahibim onu da diqqətimizə çatdırır ki, hər bitki kimi, kəklikotundan da düzgün istifadə etməsəniz, xeyrindən çox ziyan görərsiniz. Həddindən çox qəbul edildikdə arterial təzyiqin qalxmasına səbəb olur və allergiyaya meyilli olanların dərilərində qırmızı səpgilər əmələ gətirir.

Ömrünü-gününü bu gözəl bitkilərə həsr edən Ağa əmi kəklikotundan xanımlarımızın mürəbbə hazırladıqlarını da qeyd edir. Onun sözləri mənə bu kənddə yaşayan Fatma nənəni xatırladır. Bu barədə söhbətləşmək üçün Ağa əmi ilə vidalaşıb, onlara yollanıram. Fatma nənə ilə hal-əhval tutur və gəlişimin səbəbini deyirəm. Nənə söhbətə başlayır: – Yazda, may-iyun aylarında toplanan kəklikotunu qurudaraq qışda istifadə edirik. Kəndimizdə qonaq olan hər kəsə, uzaqda olan qohumlara ətirli kəklikotundan sovqat göndəririk. Elindən, uzaqda olan hər kəs üçün doğma yurdunun dağlarında bitən kəklikotu ən gözəl hədiyyədir. Çünki onda bu dağların ətri var.

Fatma nənə deyir:

– Bu dağlar hər zaman bizi düşməndən, soyuqdan, borandan, seldən, tufandan qoruduğu kimi, öz qoynunda bitən şəfalı bitkiləri ilə dərdlərimizə də dərman olub. Yaşlı insanlar yaxşı xatırlayar, əvvəllər bir evdə xəstə olanda həkim tapmaq imkanımız çox az idi. Türkəçarə vasitələrlə bir çox xəstəliklərin qarşısını almağa çalışardıq. Ən çox da soyuq fəsillərdə kəklikotu çayı köməyimizə yetərdi. İllərdir, bu bitkinin çiçəyindən və lap körpə yarpaqlarından mürəbbə, kompot hazırlayıram. Nəvələrim qızılgül, limon ətirli kəklikotunun çiçəklərini toplayıb gətirir, mən də mürəbbə bişirirəm. Deyim, siz də bilin. 100 qram çiçəyi bir kiloqram şəkər və bir litr su ilə hazırladığımız şərbətə tökür, çox da gur olmayan odda qaynadır, hazır olanda götürür, balona yığırıq. Bu mürəbbə can dərmanıdır. Bəzən kəklikotunun yarpaqlarını təmizləyir, ondan da eyni qaydada mürəbbə hazırlayıram. Bunu qışda çaya qatıb içmək çox faydalıdır.

Fatma nənə ilə kəklikotu çayı içə-içə söhbətləşmək, bu qədim yurdun dağlarına tamaşa edib, o dağlardan gələn ətri duymaq çox gözəl olsa da, şəhərə qayıtmağın vədəsi yetişdiyi üçün onunla sağollaşıb, bu əvəzsiz bitki haqqında yazı yazmağa tələsirəm...

✍ **Telli MƏMMƏDOVA**

## Zəka sahiblərimizin növbəti görüşü

*Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə “Evdə qal, şahmat oyna” devizi altında keçirilən internet üzərindən yarışlar davam edir.*

Dünən Azərbaycan və Türkiyə zəka sahibləri arasında növbəti dostluq görüşü keçirilib. Blitz turnirdə muxtar respublikanın, Bakı şəhərinin “Grand Master” Şahmat Klubunun, Quba şəhər Şahmat Məktəbinin və Türkiyənin Hatay şəhərinin “Şah” Şahmat Klubunun şahmatçıları mübarizə aparıblar. *lichess.org* portalında keçirilən turnirdə 50-dən çox zəka sahibimiz “güclərini sınayıb”.

Qeyd edək ki, turnirdə iştirak edən zəka sahibləri Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının saytından *(chess.nax.az)* istifadə ediblər.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının Culfa rayon bölməsi və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Culfa Rayon Uşaq-Gənclər Şahmat Məktəbində rayonun ümumtəhsil məktəblərinin I-IX sinif şagirdləri arasında onlayn dərslər keçilib.

✍ **Ceyhun MƏMMƏDOV**

## Elan

“Naxçıvansığorta” Açıq Səhmdar Cəmiyyəti yeni ünvanda fəaliyyət göstərir:

***Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 4***

### *İtmişdir*

Əliyev Sahib Nəriman oğlunun adına olan JN-749 inventar nömrəli, 10206005 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Yuxarı Aralıq kəndində yaşamış Əliyeva Qəniyə Əbil qızının adına olan JN-63 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Yuxarı Aralıq kəndində yaşamış Əliyeva İradə Meydan qızının adına olan JN-62 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Cəlilov Qərib Mahir oğlunun adına verilmiş hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Yengicə kənd sakini Əliyeva Esmira Əli qızının adına olan JN-1045A inventar nömrəli, 10207018 kodlu torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Çəmənli kəndində yaşamış Hüseynov Cəlil Elçin oğlunun adına olan JN-137A inventar nömrəli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*

*Şöbələr: 545-81-44, 545-51-18*

*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*

E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Pərviz Hacılı

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 377